İPƏK YOLU, No.2, 2017, səh.64-71

# AZƏRBAYCANDA TİKİNTİ MATERİALLARI BAZARINDA KOMMERSİYA MÜNASİBƏTLƏRİNİN NORMATİV-HÜQUQİ BAZASININ GÜCLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

**Yaşar İsgəndərov**

Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
e-mail: yashariskandarov75@gmail.com

**Xülasə**. Məqalədə Azərbaycanda tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının gücləndirilməsi məsələləri tədqiq olunmuşdur. Bu məqsədlə tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi əsaslarının müasir bazası və onun hazırkı reallıqlara adekvatlığı təhlil olunmuşdur. Bu sahədə qanunvericilik bazasının mühüm elementlərinin və mexanizmlərinin yenilənməsi və təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Məqalənin sonunda Azərbaycanda tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının gücləndirilməsi üzrə tövsiyyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər**: tikinti materialları bazarı, kommersiya münasibətləri, normativ-hüquqi baza, kommersiya fəaliyyəti, kommersiya münasibətlərinin effektivliyi.

## THE ISSUES OF STRENGTHENING THE NORMATIVE LEGAL BASE OF COMMERCIAL RELATIONS ON THE MARKET OF BUILDING MATERIALS IN AZERBAIJAN

**Yashar Isgenderov**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract.** The issues of strengthening the regulatory and legal framework of commercial relations in the construction materials market in Azerbaijan are explored in the article. The current bases of the regulatory and legal basis of commercial relations in the construction materials market and the adequacy of their current realities are analyzed with this purpose. The necessity of updating and improving important elements and mechanisms of the legislative base in this area is substantiated. A number of proposals and recommendations on strengthening the regulatory and legal framework for commercial relations in the construction materials market in Azerbaijan are given in the end of the article.
**Keywords**: building materials market, commercial relations, regulatory and legal framework, commercial activities, the effectiveness of commercial relations.

## ВОПРОСЫ УСИЛЕНИЯ НОРМАТИВНО-ЮРИДИЧЕСКОЙ БАЗЫ КОММЕРЧЕСКИХ ОТНОШЕНИЙ НА РЫНКЕ СТРОИТЕЛЬНЫХ МАТЕРИАЛОВ В АЗЕРБАЙДЖАНЕ

**Яшар Исгендеров**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме**. В статье исследованы вопросы усиления нормативно-юридической базы коммерческих отношений на рынке строительных материалов в Азербайджане. С этой целью анализированы нынешние базы нормативно-юридической основы коммерческих отношений на рынке строительных материалов и адекватность их современных реалий. Обоснована необходимость обновления и совершенствования важных элементов и механизмов законодательной базы в данной сфере. В конце статьи дан ряд предложений и рекомендаций по вопросам усиления нормативно-юридической базы коммерческих отношений на рынке строительных материалов в Азербайджане.
**Ключевые слова:** рынок строительных материалов, коммерческие отношения, нормативно-юридическая база, коммерческая деятельность, эффективность коммерческих отношений.

## 1. Giriş

Müasir dövrdə milli iqtisadiyyatın inkişafının yeni strateji hədəflərinin müəyyənləşdirilməsi və icrasına başlanılması ayrı-ayrı iqtisadiyyat sahələrinin fəaliyyətinin maksimum səviyyədə modelləşdirilməsini şərtləndirir. Məlumdur ki, hazırda milli iqtisadiyyatın artım tempinin yeni mənbələrinin formalaşdırılması və əlavə dəyər yaratmaq potensialına malik olan milli iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsi vacib şərtlərdəndir. Bazar iqtisadiyyatı prinsiplərindən çıxış etsək, bütün bu proseslərdə həlledici məqamlardan biri də kommersiya münasibətlərinin maksimum səmərəli təşkili və bu fəaliyyətin məhsuldarlığının təmin edilməsidir. Bununla əlaqədar olaraq, tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının yenilənməsi mütləq şərtlərdən biri kimi xarakterizə olunur. Tikinti materialları bazarı çoxfunksiyalıdır və burada böyük həcmdə kommersiya əməliyyatları həyata keçirilir, sahibkarlıq və biznes subyektləri arasında müqavilələr bağlanılır, öhdəliklər götürülür, intensiv olaraq əməliyyatlar aparılır. Bundan əlavə, tikinti materialları istehsalının təşkili, istehsal proseslərinin hüquqi tənzimlənməsi, tikinti materialları bazarlarının fəaliyyətinin nizamlanması bir çox amillərin kompleks baxılmasından və zəruri tənzimləmə tədbirlərinin görülməsindən asılıdır. Belə tədbirlərdən biri də tikinti materialları bazarında kommersiya fəaliyyətinin normativ-hüquqi əsaslarının işlənib hazırlanması və reallaşdırılmasıdır. Məlumdur ki, son illərdə ölkəmizdə qanunvericilik bazasının güclədirilməsinə, o cümlədən sahibkalığın inkişafı ilə bağlı hüquqi-normativ sənədlərin yenilənməsinə ciddi önəm verilməkdədir. Bir tərəfdən, sahibkarlıq fəaliyyətinə müdaxilələrin yolverilməməzliyi istiqamətində tənzimləmə mexanizmləri daha çox tətbiq edilirsə, digər tərəfədən milli iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən tikinti materialları istehsalı sektorunda və bununla əlaqədar olaraq, tikinti materialları bazarlarında kommersiya fəaliyyətinin daha məhsuldar və effektiv təşkili mexanizmlərinin intensiv tətbiqinə imkan verən qanunvericilik aktlarının hazırlanması və təsdiq edilməsi vacibdir. Mükəmməl qanunvericilik aktlarının olması və hüquqi-normativ bazanın mövcudluğu tikinti materialları bazarlarında kommersiya fəaliyyətinin kifayət qədər əlverişli və intensiv aparılmasına gətirib çıxara bilər, bu isə öz növbəsində kommersiya münasibətlərinin daha sivil və qanuni əsaslar üzərində formalaşdırılmasına əlavə stimullar verər.

## 2. Tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının müasir vəziyyəti

Qeyd edək ki, ölkəmizdə iqtisadi islahatların əsas fazası artıq arxada qalmışdır və bununla əlaqədar olaraq, əksər iqtisadiyyat sahələrinin modernləşdirilməsi, bu sahələrin intensiv fəaliyyətinə imkan verən qanunvericilik bazasının formalaşdırılması prosesləri başa çatdırılmışdır. Tikinti sektorunda da fəaliyyətin tənzimlənməsi üçün müvafiq qanunlar toplusu qəbul edilmişdir. Lakin tikinti materialları istehsalı, tikinti materialları bazarlarının fəaliyyətinin spesifik xüsusiyyətləri, bu bazarlarda kommersiya fəaliyyətinin çevikliyinin və səmərəliliyinin təmin edilməsi, kommersiya münasibətlərinin sağlam rəqabət mühütində inkişafının intensivləşdirilməsi üzrə qanunvericilik aktlarının gücləndirilməsi zərurəti qalmaqdadır. Xüsusi ilə, tikinti materialları bazarında kommersiya münasibətlərinin maksimum səmərəli təşkilinə imkan verən rəqabət mühütinin formalaşdırılması vacib şərtlərdəndir.

Tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının formalaşdırılmasında ölkəmizdə müstəqilliyimizin bərpasından sonra qəbul edilmiş qanunların, qanunvericilik aktlarının və yeni yaradılmış strukturların böyük əhəmiyyəti vardır. Azərbaycanda tikinti işlərinin kordinasiyası və tikinti sahəsindəki siyasətin, standartların, meyarların işlənib hazırlanmasında və həyata keçirilməsində əsas funksiyanın Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi həyata keçirir [4]. Şəhərsalma və Tikinti Məcəlləsinin 10-cu fəsilində isə tikinti materialları və məmulatına aid müddəalar öz əksini tapmışdır. Bu məcəllənin 54-cü maddəsində qeyd edilir ki, tikinti materiallarının və məmulatlarının uyğunluğ sertifikatı olmalıdır. Bundan əlavə, Məcəllənin 55-ci maddəsində göstərilir ki, tikinti materialları və məmulatlarının sertifikatlaşdırlmasını həyata keçirən müəssisələrin laborotoriyaları olmalıdır və bu materialların standartlara uyğunluğu əsaslı şübhələr olduğu hallarda yoxlamalar həyata keçirilir [5]. Bu cür yanaşma və qanunvericilik aktına əsasən tənzimləmə tikinti materialları bazarında dövriyyədə olan tikinti materiallarının və məmulatlarının mənşəyinin müəyyənləşdirilməsinə, kommersiya münasibətlərinə cəlb edilmiş iştirakçıların qanun çərçivəsində fəaliyyət göstərmələrinə və kommersiya əməliyyatlarının həcminin artırılmasına əlavə imkanlar yaradır. Tikinti materialları və məmulatlarının sertifikatlaşdırılması, onların keyfiyyət göstəricilərini tənzimləyən qanunvericilik aktlarının və standartların mövcudluğu tikinti materialları bazarlarına çıxarılan materiallar və məmulatların alqı-satqı müqavilələri iştirakçıları arasında etimadın yüksəldilməsinə əlavə imkanlar verir.

Qeyd edək ki, 29 dekabr 2006-ci ildə Azərbaycan Respublikası Prezdentinin Fərmanı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında əsasnamə təsdiq edilmişdir [2]. Bu Əsasnamədə tikinti istifadə olunan tikitni materiallarının müəyyən edilmiş standartlar səviyyəsində olması və bunlarla əlaqədar olaraq, normaların və meyarların qorunması geniş yer almışdır. Son 20 il ərzində ölkəmizdə tikinti işlərinin həcmi və dinamikası intensivliyi ilə fərqlənmişdir və bu baxımdan tikinti materialları bazarlarında kommersiya münasibətlərinin tənzimlənməsi, tikinti materiallarının alqı-satqı proseslərinin təkmilləşdirilməsi, ümumilikdə tikinti işlərinə kompleks nəzarətin diqqətdə saxlanılmasına ciddi önəm verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 30 avqust 2007-ci il tarixli "Azərbaycan Respublikasının tikinti sahəsində dövlət nəzatərinin gücləndirilməsi haqqında" Fərmanında tikinti sahəsində, o cümlədən tikinti materialları və məmulatları üzrə dövlət standartlarının yenidən baxılması, həmin standartların müasir tələblərə uyğunlaşdırılması, yenilənməsi və dünya təcrübəsinin nəzərə alınması vacib sayılmışdır [6].

Qeyd edək ki, tikinti materialları bazarında kommersiya münasibətlərinin və kommersiya əməliyyatlartının tənzimlənməsi bir çox qanunvericilik aktlarının vacibliyini önə çəkmişdir. Burada, ilk növbədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, kommersiya əməliyyatlarının səmərəliliyinin artırılması, rəqabət mühitinin ədalətli təşkili və s. amillər mühüm əhəmiyyət kəsb edir. Sahibkarliq fəaliyyətinin tənzimlənməsi və ölkədə kommersiya fəaliyyətinin təşkili ilə bağlı hüquqi-normativ mexanizmlər əsasən Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli Qanunu ilə tənzimlənir [11]. Qanunda qeyd edilir ki, sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətləri göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir. Dövlət sabikarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir. Göründüyü kimi, kommersiya münasibətləri və kommersiya fəaliyyəti bütövlikdə sahibkarlıq fəaliyyətinin bütün aspektlərini özündə birləşdirir və bu baxımdan, həmçinin tikinti materialları bazarında kommersiya münasibətlərinin optimal tənzimlənməsi, hüquqi-iqtisadi mexanizmlərin təkmilləşdirilməsi vacib şərtlərdəndir. Bir sıra ölkələrdə isə konkret olaraq kommersiya haqqında qanun mövcuddur. Məsələn, Latviyada Kommersiya Qanunu 13 aprel 2000-ci ildən quvvədədir [15]. Heç də sirr deyildir ki, son illərdə ölkəmizdə sahibkarlığın, o cümlədən tikinti materialları sektorunda və tikinti materialları bazarında sahibkarlıq fəaliyyətinin, kiçik və orta biznesin inkişafının sürətləndirilməsi üçün sistemli və ardıcıl tədbirlər görülməkdədir. Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il

tarixli “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “Bir pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Sərəncamı ilə əlaqədar olaraq, bu sahədə normativ-hüquqi aktların böyük bir hissəsi təkmilləşdirilmiş və tənzimlənmiş, mövcud qanunlarda və normativlərdə isə dəyişikliklər həyata keçirilmişdir [12]. Bundan əlavə, tikinti materialları istehsalının genişləndirilməsi, yeni müəssisələrin yaradılması və tikinti materialları bazarının infrastrukturunun gücləndirilməsi, burada kommersiya əməliyyatlarının maksimum səmərəli şəkildə və gəlirlilik prinsiplərinin qorunması ilə aparılması üçün ölkəmizdə münbit şərait yaradılmış, tikinti materiallarının bazarı fəaliyyətəinə və kommersiya münasibətlərinin intensivliyinə mane olan süni müdaxilələrin azaldılmış, dövlət orqanlarının planlı yoxlamaları müəyyən müddətə dayandırılmışdır. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410 –İVQ nömrəli Qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 26 oktyabr 2015-ci il tarixli Fərmanı ilə bu sahədə radikal addımlar atılmışdır [13]. Şübhəsiz belə bir addımın atılması tikinti materialları bazarında kommersiya münasibətlərinin daha geniş həcmdə və sərfəli şərtlərlə aparılmasına əlavə imkanlar açmışdır. Bununla belə, fikrimizcə kommersiya münasibətlərinin dayanıqlı və davamlı olması üçün ölkəmizdə bir çox milli iqtisadiyyat sahələrində olduğu kimi, tikinti materialları istehsalı şəbəkəsində və tikinti materialları bazarında sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində əlavə tədbirlər görülməli və qanunvericilik aktları təkmilləşdirilməlidir. Belə ki, “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu 4 mart 1993-cü ildə qəbul edilmişdir [1]. Bu Qanuna dəfələrlə əlavələr və dəyişikliklər edilmişdir. Bununla belə, Qanun müasir reallıqları, əmtəə bazarlarındakı kommersiya əməliyyatlarının müasir tendensiyalarını və spesifik xüsusiyyətlərini tam olaraq özündə əks etdirmir. Buna görə də, kommersiya fəaliyyəti sahəsində sağlam rəqabətin təşkili, məhdudlaşdırıcı fəaliyyət vasitələrinin aradan qaldırılması, iri tikinti materialları istehsalçılarının və satıcılarının hökmran mövqelərinin güclənməsinə yol verilməməsi, bazar maneələrinin aradan qaldırılması kimi mühüm amillər nəzərə alınmaqla yeni antiinhisar qanunvericilik aktı hazırlanmalı və qəbul olunmalıdır. Bundan əlavə, “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunun 2 iyun 1995-ci ildən quvvədədir [9]. Qanunda haqsız rəqabət anlayışı kimi bazar subyektinin sahibkarlıq fəaliyyətinda mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətlər qəbul edilmişdir.

## 3. Tikinti materialları bazarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının gücləndirilməsi perspektivləri

Qeyd edək ki, "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 2017-ci il yanvar ayının 1-dən qüvvəyə minmişdir [7]. Bundan əlavə, ölkəmizdə fəaliyyət göstərən tikinti materialları bazarının təkmilləşdirilməsi, bu bazarda tədbiq olunan ticarət texnologiyalarının səmərəliliyinin təmin edilməsi xüsusi önəm verilməkdədir. Kommersiya əməliyyatlarının kommersiya fəaliyyət iştirakçıları üçün əlverişli olması, kommersiya sirrlərinin qorunması, mal və xidmətlər üzrə satınalma müqavilələrinin hüquqi-normativ əsaslarının qorunması diqqət mərkəzindədir. Belə ki, 4 dekabr 2001-ci ildə "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur [10]. Kommersiya sirri və kommersiya münasibətlərinin ölkə qanunu ilə tənzimlənməsi tikinti materialları bazarında kommersiya fəaliyyətinin daha effektiv təşkilinə əlavə əsaslar formalaşdırır və müsbət təsir göstərir. Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 fevral 2003-cü il tarixli Qərarı ilə "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi" təsdiq edilmişdir [3]. Məlumdur ki, ölkədə aparılan tikinti-quruculuğ işlərində və iri tikinti layihələrində böyük həcmdə tikinti materialları və məmulatları istifadə edilir, bu tədbirlərin həyata keçirilməsində əsas məsuliyyət dövlət stukturlarının və dövlət müəssisələrinin üzərinə düşür. Ölkəmizdə bu tip müəssisələrdə və strukturlarda mal və materialların alınması üzrə şəffaflığın və rəqabətin qorunması məqsədi ilə həmin tədbirlər tenderlər vasitəsi ilə aparılır [14]. Təəssüf ki, bir çox hallarda bu kimi tenderlərin keçirilməsi proseslərinin qeyri-şəffaflığına dair məlumatlara da rast gəlinir və son illərdə ölkəmizdə korrupsiya əməllərinə və cinayətlərinə dair məhkəmə proseslərində tender keçirilməsi prosedurlarının pozulması və rəqabət olmadan bu kimi tenderlərin keçirilməsi barədə məlumatlar diqqət çəkir. Bundan əlavə, ölkəmizdə "Əmtəə birjası haqqında" Azərbaycan Respublikasının Qanunu 25 may 1994-ci ildən qüvvədədir [8]. Belə bir Qanunun qəbul edilməsinə baxmayaraq, tikinti materiallarının alqı-satqısı üzrə tikinti materialları bazarında iri həcmdə və ya uğurlu fəaliyyət göstərən əmtəə birjasının təşkilinə nail olunmamışdır.

Ölkəmizdəki, tikinti materialları bazarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi proseslərinə ciddi zərurət vardır. Bu baxımdan tikinti materialları bazarında kommersiya münasibətlərini normativ-hüquqi bazasının özündə tam şəkildə birləşdirə biləcək "Kommersiya haqqında" Qanunun olması daha səmərəli effekt verə bilıərdi. Bundan əlavə, kommersiya fəaliyyətinin əsasını təşkil edən ticarət texnologiyalarının, başqa sözlə ticarət

əməliyyatlarının, xüsusilə pərakəndə ticarət dövriyyəsinin tənzimlənməsi üzrə mükəmməl və müasir qanunvericilik bazasına, o cümlədən "Ticarət haqqında" Qanunun hazırlanması və təsdiq edilməsi vacib şərtlərdəndir.

**Nəticə.** Tikinti materialları bazarlarında kommersiya münasibətlərinin normativ-hüquqi bazasının təkmilləşdirilməsini şərtləndirən bir sıra amilləri ümumiləşdirmək mümkündür:

- Azərbaycanda tikinti materialları bazarında kommersiya münasibətlərinin tam bazar mexanizmləri və alətləri əsasında təkmilləşdirilməsinə imkan verən normativ-hüquqi baza formalaşdırılmalıdır;
- ölkəmizdə tikinti materialları bazarlarının fəaliyyətinin tənzimlənməsi və bununla əlaqədar olaraq normativ qaydaların və standartların işlənib hazırlanması həyata keçirilməlidir;
- müasir şəraitdə bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olması və iqtisadi çağırışların dərinləşməsi meyilləri də nəzərə alınmaqla, ölkəmizdə tikinti materialları bazarlarında kommersiya münasibətlərinin manevrliyinə və intensivliyinə əlavə stimullar verən qanunlar hazırlanmalı və qəbul edilməlidir və s.

## Ədəbiyyat

1. Antiinhisar fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 4 mart 1993-cü il, №526.
2. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə, Azərbaycan Respublikası Prezdentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında Qərar №-34, Bakı şəhəri, 28 fevral 2003-cü il.
4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin yaradılması barədə Azərbaycan Respublikasının Prezdentinin Sərəncamı, Bakı şəhəri, 28 fevral, 2006-ci il, №1339.
5. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 29 iyun 2012-ci il, №392-İVQ.
6. Azərbaycan Respublikasının tikinti sahəsində dövlət nəzarətinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 30 avqust 2007-ci il, №624.

7. Elektron ticarət haqqında Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 16 dekabr 2016-cı il.
8. Əmtəə birjası haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 25 may 1994-ci il, №803.
9. Haqsız rəqabət haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 2 iyun 1995, №1049.
10. Kommersiya sirri haqqında Azərbaycan Respublikasının qanunu, Bakı şəhəri, 4 dekabr 2001-ci il, №224-IIQ.
11. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 15 dekabr 1992-ci il, №405.
12. Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 25 oktyabr 2007-ci il. №- 2458.
13. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410 -İVQ nömrəli Qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 26 oktyabr 2015-ci il, №660.
14. Tender haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezdentinin Fərmanı, Bakı şəhəri, 7 aprel 1997-ci il, №570.
15. Коммерческий закон. Законы Латвии. http://www.pravo.lv.